**Dilarə Səlimi,**
*Elektron axtarış sistemlərinin inkişafı şöbəsinin müdiri*

# MİLLİ KİTABXANANIN FƏALİYYƏTİNDƏ VƏ İNKİŞAFINDA ELEKTRON KATALOQUN ƏHƏMİYYƏTİ

***Xülasə**: Məqalədə Azərbaycan Milli Kitabxanasında elektron kataloqun yaradılmasından, onun imkanları və əhəmiyyətindən bəhs edilir.*

***Abstract:** The article talks about the creation of an electronic catalog in the National Library of Azerbaijan, its possibilities and importance.*

***Резюме:** В статье рассказывается о создании электронного каталога в Азербайджанской Национальной Библиотеке, его возможностях и значении.*

***Açar sözlər:** Milli Kitabxana, elektron kataloq, biblioqrafik yazı, VTLS, Virtua, Chamo, MARC-21, axtarış növləri.*

***Key words:** National Library, electronic catalog, bibliographic record, VTLS, Virtua, Chamo, MARC-21, search types.*

***Ключевые слова:** Национальная Библиотека, электронный каталог, библиографическая запись, VTLS, Virtua, Chamo, MARC-2, виды поиска.*

Dünyada baş verən kommunikasiya texologiyalarının artması, informasiyanın oxuculara operativ olaraq çatdırılması, məsafədən asılı olmayaraq xidmət göstərilməsi, elektron kataloqun yaradılması və bütövlükdə informasiya bazalarının formalaşması informasiya təminatının mötəbərliliyinə imkan verir və tələbatçıların informasiya tələbatına şərait yaradır.

Elektron kataloq kitabxanada mövcud olan sənədlərin biblioqrafik informasiyalarını əks etdirən, məzmununu açan və lazımi sənədlərin kitabsaxlayıcıdan axtarılıb tapılmasına imkan verən sadə informasiya-axtarış sistemidir. Ənənəvi kataloq-kartoteka sistemlərindən fərqli olaraq, elektron kataloq vasitəsilə dünya kitabxanalarında olan sənəd-informasiya fondları haqqında məlumat əldə etmək imkanı yaranır, onların operativ axtarışı təmin edilir.

Elektron kataloqun ümumi modulunu aşağıdakı kimi izah etmək olar:

1) Elektron kataloq maşınla oxunan formada reallaşdırılan kitabxana kataloqudur.

2) Elektron kataloq kataloq funksiyalarını icra edən biblioqrafik məlumat bazasıdır.

3) Elektron kataloq avtomatlaşdırılmış kitabxana-informasiya sistemi və ya onun altsistemidir.

4) Elektron kataloq onlayn kataloqdur.

Milli Kitabxanada elektronlaşmanın əsas istiqaməti kimi elektron kataloqun təşəkkülü və inkişafı prosesinin təhlili nəticəsində müəyyən edilmişdir ki, kitabxananın elektronlaşması və onun mühüm tərkib hissəsi kimi elektron kataloqun yaradılması iki mühüm və obyektiv amilin təsiri altında baş vermişdir. Bunlardan birincisi daxili amildir ki, bu da özünü cəmiyyətin sənəd-informasiya tələbatının artan xətt üzrə inkişaf etməsi və mürəkkəbləşməsi ilə, ikincisi isə kitabxananın qlobal sənəd-informasiya mühitinə inteqrasiya olunmasından irəli gələn çağırışlar ilə təzahür etmişdir. Aparılan islahatların, texniki və proqram təminatının nəticəsi olaraq kitabxana bu gün müasir tələblərə tam cavab verən elektron kataloqa sahibdir. Biblioqrafik resursların yaradılması qlobal kitabxana-informasiya məkanına inteqrasiya etmək imkanı yaratmışdır.

Elektron kataloq müasir kitabxananın avtomatlaşdırılmış informasiya-idarəetmə sisteminin və soraq-biblioqrafiya aparatının (SBA) tərkib hissəsidir. Elektron kataloqda bir və ya bir neçə kitabxananın fondunda mövcud olan sənədlər haqqında biblioqrafik informasiya əks olunur. Elektron kataloqdan istifadə etməklə kitabxanada əsasən aşağıdakı vəzifələr həyata keçirilir:

- Kitabxanaya lazım olan sənədlər sifariş verilir;
- Kitabxanaya yeni daxil olan sənədlər ilkin işlənir;
- Kitabxanaya yeni daxil olan sənədlər analitik emal edilir (biblioqrafik yazılar tərtib edilir);
- Kitabxananın xaricdən maşınla oxunan formada aldığı biblioqrafik yazılar tamamlanır;
- Kartoçka və ya nəşr (kitab) formasında olan biblioqrafik yazılar maşınla oxunan formaya konvertasiya edilir;
- Soraq-biblioqrafiya xidməti həyata keçirilir;
- Kitabxana xidməti zamanı fondda sənədlərin dövriyyəsinə (oxucu tələbnamələrinin avtomatlaşdırılmış qaydada formalaşdırılması, onların kitab-saxlayıcıya ötürülməsi) nəzarət edilir;
- Normativ nüfuzlu fayllar dəstəklənir;
- Biblioqrafik məhsulun (biblioqrafik siyahıların, göstəricilərin, icmalların) tərtibi həyata keçirilir;
- Fondun uçotu və statistikası, onun vəziyyətinə, hərəkətinə, sənədlərin işlənməsi və xidmət proseslərinə nəzarət edilir.

Praktikada əksər hallarda elektron kataloqa monoqrafik biblioqrafik yazılar daxil edilir. Özündə analitik biblioqrafik yazıları əks etdirən biblioqrafik verilənlər bazaları (elektron kartotekalar) struktur baxımından elektron kataloqa uyğun olur. Müasir elektron kataloqun əsas funksiyalarına aşağıdakılar daxildir:

- Bir sənəd və ya onun bir hissəsini əks etdirən biblioqrafik yazının sistemə

cəmi bir dəfə daxil edilməsi və bununla biblioqrafik yazıların dubletliyinin aradan qaldırılması;

- Kitabxananın avtomatlaşdırılmış sistemindəki bütün biblioqrafik verilənlər bazalarında biblioqrafik yazıların vahid formatda tərtib və təqdim edilməsinin təmin edilməsi;

- Biblioqrafik yazının istənilən elementi və ya elementlərin kombinasiyası üzrə axtarışın təmin edilməsi.

Milli Kitabxanada dünyanın ən böyük və zəngin kitabxanalarında daha çox tətbiq olunan VTLS-VIRTUA sistemi üzrə həyata keçirilən kitabxana proseslərinin avtomatlaşdırılması, oxucu sorğularının virtual rejimdə ödənilməsinə və ödənilən arayışların tam şəkildə məlumat bazasında saxlanılmasına şərait yaradan və onların təkrar istifadəsinə imkan verən avtomatlaşdırılmış sistem tətbiq olunur.

Sistem ən vacib şəbəkə imkanlarına malikdir. Sistemin mükəmməlliyi ondan həm lokal şəbəkələrdə, həm də İnternetdə istifadə etməyə imkan verir. Ona görə də bu sistem milli, akademik, kütləvi və fondunda milyonlarla nəşr saxlanılan iri həcmli kitabxanalarda istifadə etmək üçün nəzərdə tutulmuşdur.

Kitabxanada sistemin tətbiqinə 2003-cü ildən başlanılmışdır və bura elektron kataloqun tərtibi, elektron kitabxananın təşkili, oxucuların qeydiyyatı, kitab verilişi, kitab fondunun komplektləşdirilməsi, milli biblioqrafiyanın yaradılması, bütün kitabxana proseslərinin avtomatlaşdırılması modulları daxildir.

2004-cü ilin martından Milli Kitabxanada digər kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması işlərinə başlanılmışdır.

Milli Kitabxanada avtomatlaşdırmanın, kompüterləşmənin inkişafında elektron kataloqun, eləcə də elektron tammətnli resursların yaradılmasının ardıcıl, intensiv bir proses şəklini alması mərhələsi 2006-cı ilə təsadüf edir. Bu mərhələdə həyata keçirilən ilk tədbir elektron kataloqun potensial imkanlarından istifadə etmək, onun fasiləsiz olaraq funksiya göstərməsini təşkil etmək idi. Bu işi həyata keçirmək üçün 2006-cı ildə Milli Kitabxanaya təcrübəli mütəxəssislər dəvət edilmiş, VTLS İnc. Korporasiyasının vitse-prezidenti, korporasiyanın Avropa üzrə menecer-direktoru Cek Bazuzi və korporasiyanın Avropa üzrə eksperti Yana İlavska kitabxananı ziyarət edərək treninqlər keçirməklə yanaşı, həmin sahədə işçilərə praktik məsləhətlər vermişlər. Elə həmin ildə ümumilikdə 12896 biblioqrafik yazı kitabxananın elektron kataloqunun verilənlər bazasına daxil edilmişdir ki, bu da 78351 min nüsxə kitabı əhatə edirdi.

2006-cı ilin may ayında kitabxananın Veb-saytının və elektron kataloqunun təqdimat mərasimi olmuşdur.

Milli Kitabxanada elektron kataloqun yaradılması işi ilə "Elektron axtarış sistemlərinin inkişafı" şöbəsi məşğul olur. Şöbədə Milli Kitabxanaya daxil olan

cari ədəbiyyat, həmçinin kitabxananın fondundakı Azərbaycan və xarici dillərdə (türk, rus, ingilis və b.) olan ədəbiyyatın biblioqrafik yazıları yaradılaraq Elektron kataloqun məlumat bazasının yaddaşına daxil edilir.

Şöbə elektron kataloqda biblioqrafik yazıları MARC-21 formatında təqdim edir və verilənlər bazası yaradıldıqda ən yeni biblioqrafik nəşrlərdən istifadə olunur ki, bu da təsvirin tam dolğun şəkildə aparılmasına imkan verir. Biblioqrafik yazılar əsas biblioqrafik məlumatları: təsvirin başlığını, təşkilatların adlarını və unifikasiya sərlövhələrini, nəşr haqqında məlumatları, buraxılış məlumatlarını, fiziki xüsusiyyətləri, həmçinin, elmi kitabxanalar üçün KBT və UOT cədvəllərinin tam nəşrinin təsnifat indekslərini və Azərbaycan Milli Kitabxanasının (AMK) predmet rubrikalarını, İSBN-i, nəşrin qiymətini, tirajını və bundan əlavə, nüsxələrin sayı və həmin nüsxələrin yerləşdiyi yer haqqında kodlaşdırılmış məlumatları ehtiva edir.

Milli Kitabxana son illərdə texnologiyalarının tətbiqi ilə bağlı çox mühüm tədbirlər həyata keçirmişdir. Milli Kitabxanada avtomatlaşdırılma prosesinin davamı olaraq, 2015 və 2017-ci illərdə yeni "Elektron Kitabxana" web-resursu hazırlanmış və "Chamo" proqramı elektron kataloqa inteqrasiya olunaraq oxucuların istifadəsinə verilmişdir. Görülən işin fasiləsiz və davamlı olmasını təmin etmək üçün zəruri proqram təminatı və avadanlıqlar server otağında quraşdırılmışdır.

Elektron kataloqun saytında format, məzmun, materialin dili, nəşr yeri, sənədin kitabxananın hansı struktur vahidində saxlanması və predmetinə görə biblioqrafik yazıların açılışı verilmişdir.

Milli Kitabxananın Elektron kataloqundan istifadə etmək üçün www.millikitabxana.az saytına daxil olaraq "E-kataloq və kitabxana" sətrinin üzərində düyməni sıxaraq Elektron kataloqa daxil olmaq olar.

Hazırda elektron kataloq vasitəsilə kitabxananın fondunda olan çap məhsuları haqqında istənilən məlumatları əldə etmək mümkündür.

- Monoqrafiyalar;
- Seriya ilə nəşr olunan monoqrafiyalar;
- Dissertasiyalar;
- Avtoreferatlar;
- Not-musiqi nəşləri;
- Kartoqrafik nəşrlər;
- Elektron resurslar;
- Əlyazmalar;
- Afişalar;
- Plakatlar;
- Kolleksiyalar və s.

Milli Kitabxananın Mədəniyyət Nazirliyi və Heydər Əliyev Fondu ilə birgə həyata keçirdiyi “Milli-mənəvi dəyərlərimizin Vətənə qayıdışı” layihəsi çərçivəsində dünyanın ən zəngin kitabxanalarında: Ankara Milli Kitabxanasında, İstanbul Süleymaniyyə Kitabxanasında, İstanbul Nuri-Osmaniyyə Kitabxanasında, İstanbul Bayazid Kitabxanasında, İstanbul Ayasofya Kitabxanasında, İstanbul Millət Kitabxanasında, İstanbul Xosrov Paşa Kitabxanasında, İstanbul Topqapı Sarayı Muzeyi Kitabxanasında, Konya Mövlana Muzeyi Kitabxanasında, Tehran Milli Kitabxanasında, Tehran Səna-Məclis Kitabxanasında, Tehran Universitetinin Kitabxanasında, Praqa Milli Muzeyində, Avstriya Milli Kitabxanasında, Mançester Universitetinin Kitabxanasında, Berlin Milli Kitabxanasında, Fransa Milli Kitabxanasında, Filadelfiya Kitabxanasında, Oksford Universitetinin Bodlean Kitabxanasında, Britaniya Kitabxanasında, ABŞ-Baltimor, Uolter İncəsənət Muzeyində, ABŞ Konqres Kitabxanasında, Strasburq Universitet Kitabxanasında, Dallas İncəsənət Muzeyində, Yerusəlim İsrail Milli Kitabxanasında və s.-də mühafizə olunan Azərbaycan klassiklərinin əlyazmalarının digital nüsxələrinin Milli Kitabxanaya gətirilməsinə nail olmuşdur. Milli Kitabxana tərəfindən həmin əlyazmalara yeni nəfəs verilmiş, hər bir nüsxənin orijinallığı qorunaraq nəfis tərtibatda nəşr edilmiş və biblioqrafik yazıları yaradılaraq Elektron kataloqun bazasına ötürülmüşdür.

Milli Kitabxana ilk dəfə olaraq, Azərbaycan və rus dillərində olan afişa və plakatların da biblioqrafik yazılarının yaradadılaraq Elektron kataloqun məlumat bazasının yaddaşına daxil edilməsinə də nail olmuşdur.

Ziyalılarımızın şəxsi kitabxanasından Milli Kitabxanaya təqdim olunan qiymətli kitab “Kolleksiya”larının da biblioqrafik yazıları yaradadılaraq Elektron kataloqun məlumat bazasının yaddaşına daxil edilməyə başlamışdır.

Bütün bunlarla yanaşı, Elektron kataloqa digər xarici dillərdə olan ədəbiyyat növlərinin bilioqrafik yazıları daxil edilir.

Elektron kataloqdan bir neçə axtarış növü üzrə:

1) sadə axtarış;

2) kombinasiya edilmiş axtarış;

3) başlıqların açar sözü üzrə axtarış;

4) xarici məlumat bazalarından axtarış aparmaq olar.

Müasir elektron kataloqun tətbiqi üçün əhəmiyyət daşıyan digər bir ünsür normativ nüfuzlu yazılardır. Bunun üçün elektron biblioqrafik yazının daxilində ayrıca sahə (altsahə) nəzərdə tutulur. Normativ nüfuzlu yazı vasitəsilə biblioqrafik yazının müəyyən sahəsindəki element dəqiqləşdirilir, açılır. Normativ nüfuzlu yazının ən geniş yayılmış növü biblioqrafik təsvirdə adı çəkilən şəxslər, kollektivlər, predmet rubrikaları barədə informasiyanı əks etdirir.

Bir çox kitabxanalar elektron kataloqlarla yanaşı, kartoçka formasında kataloq-kartoteka sistemini aparmaqda, müxtəlif biblioqrafik siyahılar, biblioqrafik icmallar, biblioqrafik göstəricilər yaratmaqda davam edir. Buna görə də, bir çox avtomatlaşdırma sistemlərində elektron kataloqda biblioqrafik siyahının və kartoçkanın çap versiyasının hazırlanması funksiyası da olur. Kataloqlaşdırıcı xüsusi menyunu açır va biblioqrafik siyahı və ya kartoçka hazırlanması komandasını seçir. Kartoçka hazırlanması komandası verildikdə sistem avtomatik olaraq çap kartoçkası formasını formalaşdırır və displeydə göstərir. Əgər bu forma kitabxanaçını qane edirsə, çap etmə komandası aktivləşdirilir və xüsusi çap qurğusu kartoçkanı çap edir. Əgər qane etmirsə, onun üzərində lazımi dəyişikliklər aparılır.

Hazırda elektron kataloqda 837.578-dən çox biblioqrafik yazı tərtib olunaraq məlumat bazasının yaddaşına daxil edilmişdir. Bu rəqəm demək olar ki, daim artmaqdadır.

Belələklə, Elektron kataloq, adından da göründüyü kimi, ənənəvi kataloqun rəqəmsallaşdırılmış, genişləndirilmiş, müasirləşdirilmiş və təkmilləşdirilmiş texniki formasıdır və onun yaradılması kitabxanaçılıq sahəsində bilavasitə informasiya texnologiyalarının tətbiqi ilə bağlı olan çoxfunksiyalı və ağır zəhmət tələb edən iş proseslərindən biridir. Və biz kitabxanaçıların qarşısında duran əsas vəzifə bu imkanlardan maksimum səviyyədə istifadə etməkdir.

## ƏDƏBİYYAT

**1.** Cəfərov, C.A. Azərbaycan kitabxanalarında elektron kataloqların inkişaf perspektivləri /Cavid Cəfərov //İnformasiya cəmiyyəti problemləri.- 2011.- №2(4).- S.50-60.

**2.** Xələfov, A.A. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası: 90 il elm və mədəniyyətin xidmətində /A.A.Xələfov; red. K.Aslan; rəyçi E.Əhmədov, P.Kazımi.- Bakı: Bakı Universiteti nəşriyyatı, 2013.- 61 s.

**3.** İsmayılov, X.İ. Kitabxana informasiya texnologiyaları: dərs vəsaiti /X.İsmayılov; red. Ə.Ə.Əliyev; rəyçilər N.İ.İsmayılov, E.M.Məmmədov; Azərb. Resp. Təhsil Nazirliyi, BDU.- Bakı: Nurlar, 2009.- 312 s.

**4.** İsmayılova, Ə.İ. Azərbaycan Milli Kitabxanasında kitabxana-informasiya xidmətinin elektronlaşdırılmasının tarixi təcrübəsi və pandemiya şəraitində tətbiqinin əsas istiqamətləri: Monoqrafiya /Ə.İ.İsmayılova; elmi red. K.Tahirov; [dizayner M.Əliqızı].- Bakı: Zərdabi Nəşr, 2023.- 258 s.

**5.** Tahirov, K.M. Azərbaycan Milli Kitabxanası müstəqillik illərində /Kərim Tahirov //Azərbaycan Milli Kitabxanası, Elmi Əsərlər.- 2015.- Bur. 7.- S.8-25.

**6.** Tahirov, K.M. Elektron kataloqun təşəkkülü və inkişafı Milli Kitabxanada elektronlaşmanın əsas istiqaməti kimi /K.M.Tahirov, Ə.İ.İsmayılova.- Bakı: M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası, Elmi Əsərlər.- 2018.- Bur. 10.- S.10-21.

**7.** Tahirov, K.M. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası müstəqillik illərində: Kitabxanada avtomatlaşdırılmış informasiya daşıyıcılarının tətbiqi haqqında /Kərim Tahirov //Kitabxanaşünaslıq və informasiya.- 2010.- №1.- S.15-31.

**8.** Tahirov, K.M. M.F.Axundov adına Milli Kitabxananın beynəlxalq əlaqələri /Kərim Tahirov //Kitabxanaşünaslıq va informasiya.- 2011.- №1.- S.32-40.